**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNİN ƏMƏK MAHNILARI: TİPOLOGİYA VƏ SEMANTİKASI

| | |
|---|---|
| İxtisas: | 6213.01 – Musiqi sənəti |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Aygül Şahmirzə qızı Əhmədova** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətsünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Lalə Şirməmməd qızı Hüseynova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**Sevda Firudin qızı Qurbanəliyeva**

sənətsünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Elmira Pənah qızı Pənahova**

sənətsünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xatirə Nəriman qızı Həsənzadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ ÜZEYİR HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI

Dissertasiya şurasının sədri: ______ Xalq artisti, professor
**Fərhad Şəmsi oğlu Bədəlbəyli**

Dissertasiya şurasının elmi katibi: ______ sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: ______ sənətşünaslıq doktoru, professor
**İmruz Məmməd Sadıx qızı Əfəndiyeva**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Əlverişli coğrafi şəraiti, əsrarəngiz təbiəti, mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Azərbaycanın Qarabağ bölgəsi dünyanın qədim yaşayış məskənlərindən biridir. Onun tarixi keşməkeşli olmuş, bu diyar vaxtaşırı yadellilərin hücumuna məruz qalmışdır. Son belə acı hadisələr 1988-1994-ci illərdə Ermənistanın işğalçılıq siyasəti nəticəsində baş vermişdir. Təəssüflə qeyd edirik ki, ermənilərin Azərbaycana təcavüzü nəticəsində ərazimizin 20 faizi ilə bərabər qiymətli mədəni sərvətlərimiz də dağıdılmışdır. Nəhayət 2020-ci ildə Qarabağın böyük hissəsi 44 günlük müharibə nəticəsində işğaldan azad edildi və 30 ilə yaxın yurd-yuvalarından didərgin düşmüş bir milyona yaxın azərbaycanlının doğma torpaqlarına qayıtması üçün böyük quruculuq işlərinə başlanıldı.

Qarabağın qeyri-maddi mədəni irsi həm də onun zəngin ənənəvi musiqisi ilə tanınır. Bu regionun musiqisi qədim ənənələri, geniş janr tərkibi, özünəməxsus ifaçılıq məziyyətləri ilə səciyyələnir. Qarabağ musiqiçiləri, muğam məktəbinin nümayəndələri Azərbaycan musiqisinin inkişafında müstəsna rol oynamışlar.

Erməni işğalçılarının Azərbaycana ərazi iddiaları ilə yanaşı, milli-mənəvi və qeyri-maddi mədəniyyət nümunələrini də durmadan mənimsəməsi, xalq musiqimizi özününkü kimi təqdim etməsi bu gün də davam edir. Məhz bu səbəbdən Qarabağ bölgəsi üzrə xalq musiqi nümunələrinin toplanılması, araşdırılması və təbliği xüsusi aktuallıq kəsb edir. Bu gün regionun bir hissəsinin hələ də erməni separatçılarının nəzarəti altında olduğu halda Qarabağın musiqi folklorunun öyrənilməsi Azərbaycan etnomusiqişünaslığının qarşısında duran ümdə vəzifələrdən biridir. Özünəməxsus regional xüsusiyyətlərə malik olan bu bölgə folklorunun özəlliklərinin üzə çıxarılması, ümummilli musiqi folkloru fonunda onun yeri və əhəmiyyətinin müəyyən edilməsi hazırkı dissertasiyanın aktuallığını şərtləndirən əsas amillərdən biridir.

Qarabağ bölgəsinin zəngin folklor xəzinəsinin tərkib hissələrindən olan əmək nəğmələri bu günə qədər etnomusiqişünaslıq elmi nöqteyi-nəzərdən tam şəkildə araşdırılmamış və hələ də öz kompleksli tədqiqini gözləyir. Əmək nəğmələrinin sistemli şəkildə

tədqiq olunması və kataloqlaşdırılması vacib məsələlərdəndir. Bu baxımdan seçilən mövzu böyük aktuallıq kəsb edir.

Hər bir xalqın folklor musiqisinin tipoloji və semantik özəlliklərinin araşdırılması etnomusiqişünaslıqda xüsusi aktuallıq kəsb edən məsələlər sırasına daxildir. Bu istiqamətdə aparılan araşdırmalar həmin xalqın tarixinin, etnik mədəniyyətinin, milli musiqi təfəkkürünün bəzi xüsusiyyətlərini daha dərindən qavranılması üçün imkan yarada bilər. Digər tərəfdən xalq musiqisinin tipoloji və semantik baxımından təhlili etnomusiqişünaslıqda böyük önəm daşıyan musiqi dialektologiyasının da inkişafına müəyyən mənada təkan verə bilər. Əmək nəğmələrinin musiqi-üslub xüsusiyyətlərinin öyrənilməsi Azərbaycan musiqisinin ən qədim qatlarının tədqiq edilməsi deməkdir. Öz üslubuna görə əmək nəğmələri Azərbaycan folklorunun inkişaf tarixində xüsusi bir mərhələni təşkil edir. Ona görə də bu mövzunun etnomusiqişünaslığın müasir tələbləri baxımından tədqiqi, toplanılmış əmək nəğmələrinin nota salınması və sistemləşdirilməsi çox vacibdir.

Məlum olduğu kimi, əmək nəğmələrinin məzmun dairəsinə insanların iqtisadi həyatı, məişəti, əmək qayğıları ilə bağlı olan mövzular daxildir. Müəyyən tarixi dövrlərdə yaranmış bu nəğmələr xalqın etnopsixoloji xüsusiyyətləri haqqında təsəvvür yarada bilər. Bu nöqteyi-nəzərdən də əmək nəğmələrinin araşdırılması aktuallıq kəsb edən məsələlər sırasına daxildir.

Ü.Hacıbəyli[1], Ə.Bədəlbəyli[2], V.Belyayev[3], M.İsmayılov[4], B.Hüseynli[5], Ə.İsazadə[6], R.İsmayılzadə[7], E.Babayev[8], A.Ziyadlı[9],

---

[1] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Apastrof, – 2010. – 173 s

[2] Bədəlbəyli, Ə.B. İzahlı monoqrafik musiqi lüğəti / Ə.B.Bədəlbəyli. – Bakı: Şərq-Qərb, – 2017. – 472 s.

[3] Беляев, В.М. Азербайджанская народная песня // – Москва: Сов. композитор, – 1971. – с. 108-163.

[4] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları / M.C.İsmayılov. – Bakı: İşıq, – 1984. – 100 s.

[5] Hüseynli, B.X. Azərbaycan xalq rəqs melodiyaları I dəftər / B.Hüseynli. – Bakı: Azərnəşr, – 1965. – 42 s.

[6] İsazadə, Ə.İ. Musiqi folkloru. Müasir Azərbaycan incəsənəti və memarlığı / Ə.İ.İsazadə. – Bakı: Elm, – 1992. – 224 s.

T.Kərimova[10], F.Xalıqzadə[11], Ə.Məmmədova[12], C.Mahmudova[13], A.Həsənova[14], A.Abduləliyev[15], Y.Şipoş[16] və başqalarının tədqiqatlarında Azərbaycan xalq mahnılarının təsnifatı, inkişaf tarixi, etimologiyası, musiqi-üslub xüsusiyyətləri haqqında elmi müdddəalar öz əksini tapmışdır. Bu işlərdə əmək mahnılarına da diqqət ayrılmış, onların təsnifatı məsələlərinə və üslub xüsusiyyətlərinə aydınlıq gətirilmişdir. Lakin, bununla yanaşı, cox az sayda əmək mahnılarının toplanılıb araşdırmalara cəlb edilməsi bu sahənin musiqişünaslıqda müfəssəl və geniş tədqiqini mümkünsüz etmişdir. Folklorşünas alimlər bu baxımdan daha irəli getmişlər: Bilal Hüseynovun "Azərbaycan folklorunda əmək nəğmələri" adlı dissertasiyasında əmək mahnılarının poetik mətnləri sistemli şəkildə araşdırılmış, onların geniş elmi təsnifatı verilmiş, Azərbaycan milli şeirinin inkişafında və sillabik vəznin formalaşmasında rolu işıqlandırılmışdır. Bu tədqiqatda folklorşünaslıqda ilk dəfə olaraq bicar, ilxıçı, dəvəçi, xırman, bağban, toxucu, misgər, dulusçu, inşaatçı və ərəkeş nəğmələri toplanılaraq təhlilə cəlb olunmuşdur. Dissertasiyada həmçinin əmək nəğmələrinin mətnlərində özünü büruzə verən fonetikliyin bədii imkanlarına diqqət yetirilmiş və onun təzahür formaları öyrənilmişdir.

---

[7] İsmayılzadə, R.Y. Azərbaycan xalq mahnıları: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 1971. – 151 s.

[8] Babayev, E.Ə. Şifahi ənənəli Azərbaycan musiqisində intonasiya problemləri / E.Ə.Babayev – Bakı: Elm, – 1998. – 146 s.

[9] Ziyadlı, A.Ə. Müasir Azərbaycan musiqisi: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 1985. – 131 s.

[10] Kərimova T.M. Ana folkloru / T.M.Kərimova – Bakı: Azərbaycan, – 1994. – 48 s.

[11] Xalıqzadə, F.X. Ağalar Əliverdibəyoun musiqişünaslıq fəaliyyəti haqqında // – Bakı: Musiqi dünyası, – 2001. № 1-2, – s. 30-32.

[12] Мамедова, А.З. Музыкальные миниатюры Азербайджана (народные песни-основные особенности строения) / А.З.Мамедова. – Баку: Элм, – 1990. – 128 с.

[13] Mahmudova, C.E. Azərbaycan xalq və bəstəkar mahnılarının mətn xüsusiyyətləri / C.E.Mahmudova. – Bakı: ADPU, – 2014. – 112 s.

[14] Həsənova, A.T. Azərbaycan xalq məişət mahnılarının lad-məqam əsasları: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / Bakı, 2008. – 126 s.

[15] Abduləliyev, A.Ə. Azərbaycan musiqi folklor ifaçılığında "zümzümə" anlayışı və onun müasir əmək folklorunda təzahürü // – Bakı: Azərbaycan milli musiqisinin tədqiqi problemləri. III buraxılış, – 1996. – s. 17-33.

[16] Şipoş, Y. Azərbaycan el havaları. Musiqinin ilkin qaynaqlarında /– Bakı: Əbilov, Zeynalov və oğulları, –2006. – 604 s.

Bilavasitə Qarabağ folklorunun toplanması və araşdırılmasında ilk mənbələr sırasında XIX əsrdə Rusiyada dərc olunmuş SMOMPK (Сборник материалов для описания местностей и племен Кавказа) dərgisinin müxtəlif saylarında yer almış folklor nümunələrini, habelə Ceyhun Hacıbəylinin 1934-cü ildə Fransada "Asiya" jurnalında çap etdirdiyi "Qarabağın dialekti və folkloru"[17] adlı məqaləsini xüsusi qeyd etmək lazımdır. Bu məqalədə Azərbaycanın Qarabağ bölgəsinin folklor mühiti və etnoqrafiyası haqqında Avropa oxucularına zəngin məlumat verilmişdir.

XX əsrin müxtəlif dönəmlərində Qarabağ bölgəsinə folklor ekspedisiyaları təşkil olunmuş və toplanılmış materiallar küll halında AMEA Folklor İnstitutu tərəfindən ərsəyə gəlmiş 10 cildlik "Qarabağ: folklor da bir tarixdir"[18] nəşrində əks edilmişdir. Bundan başqa XXI cildlik "Azərbaycan folkloru antologiyası"nın V cildi Qarabağ folkloruna[19] həsr olunub. Lakin bu nəşrlərdə yalnız verbal mətnlər, o cümlədən bir sıra xalq mahnılarının mətnləri yer almışdır.

Məlumdur ki, müasir və çoxşaxəli elm sahəsi olan etnomusiqişünaslıq həm də digər humanitar elmlərdən bəhrələnir. Qarabağ bölgəsinin tarixi-ictimai, coğrafi-iqtisadi vəziyyətini və ümumi folklor mühitini işıqlandırmaq məqsədilə biz A.Qarabağlı[20], B.Hüseynov[21], E.Mehrəliyev[22], Q.Hacıyev[23], N.Vəlişov[24], V.Muradov[25], V.Piriyevin[26] tədqiqat əsərlərinə müraciət etmişik.

---

[17] http://hajibeyov.com/research/jeyhun/karabakh.pdf

[18] Qarabağ: folklor da bir tarixdir, I kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri) tərt. ed. İ.Rüstəmzadə, Z.Fərhadov – Bakı: Elm və təhsil, – 2012. – 464 s.

[19] Azərbaycan folkloru antologiyası (Qarabağ folkloru) / Red. hey. sədri İ.Abbaslı və b. – Bakı: Səda, c. 5. – 2000. – 416 s.

[20] Qarabağlı, A (Məmmədov Aydın Babaş oğlu). Qarabağ, onun qədim tayfaları və toponimləri / A.Qarabağlı (Məmmədov Aydın Babaş oğlu). – Bakı: Mürtəcim, – 2008. – 480 s.

[21] Hüseynov, B.H. Azərbaycan folklorunda əmək nəğmələri: / filologiya üzrə fəlsəfə doktoru dis. / Bakı, 2013. – 223 s.

[22] Mehrəliyev, E.Ə. Qarabağ folklor mühiti: uzaq tarixdən bu günümüzə qədər / E.Ə.Mehrəliyev. – Bakı: Nurlan, – 2008. – 228 s.

[23] Hacıyev, Q.Ə. Qarabağ tarixi / Q.Ə.Hacıyev.– Bakı: Təknur, – 2014. – 225 s.

Xüsusi qeyd etmək lazımdır ki, Qarabağ bölgəsinin əmək nəğmələri bu günə kimi etnomusiqişünaslıq sahəsində müstəqil elmi əsərin tədqiqat obyekti olmayıb, onların tipologiyası və semantikası ilə bağlı olan məsələlər müfəssəl şəkildə araşdırılmayıb. Bu baxımdan təqdim olunan dissertasiya işi bu mövzuya həsr olunmuş ilk elmi-nəzəri tədqiqat sayıla bilər.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyamızın tədqiqat obyektini Qarabağ bölgəsi musiqi folklorunun tərkib hissəsi olan əmək nəğmələri təşkil edir. İşimizdə Qarabağda intişar tapmış maldarlıq, əkinçilik və əmək fəaliyyətinin digər növləri ilə bağlı olan nəğmələr tədqiq edilmişdir.

Tədqiqatın predmetini isə Qarabağ bölgəsi əmək nəğmələrinin tipoloji və semantik xüsusiyyətləri təşkil edir. Azərbaycan etnomusiqişünaslığında ilk dəfə olaraq autentik folklor nümunələri semantik təhlilin predmeti olmuşdur. Tədqiqatın predmetinə həmçinin əmək nəğmələrinin musiqi dilinin bütün ünsürlərinin qarşılıqlı əlaqələri, melopoetik xüsusiyyətlər, folklorun bu janrında özünü büruzə verən sinkretizmin təzahür formaları, müqayisəli təhlil nəticəsində aşkar olunmuş tipoloji modellər və s. daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın əsas məqsədi Qarabağ bölgəsinin əmək nəğmələrinin tipologiyası və semantikasının tədqiqi ilə bağlıdır. Müntəzəm və ardıcıl şəkildə sahə araşdırmaları zamanı topladığımız əmək nəğmələrini nota salıb sistemləşdirmək və təhlil etmək dissertasiyanın əsas məzmununu təşkil edir. Müəllif bu məqsədə xidmət edən aşağıdakı konkret məsələlərin həllinə xüsusi əhəmiyyət verir:

- Azərbaycanda əmək mahnılarının öyrənilməsi prosesini və tarixini araşdırmaq;

---

[24] Tapdıqoğlu, N (Vəlişov Nazim Tapdıq oğlu). Cəbrayıl rayonu. Yaşayış məntəqələri, şəhidləri / N.Tapdıqoğlu (Vəlişov Nazim Tapdıq oğlu). – Bakı: Təknur, – 2014. – 255 s.

[25] Muradov, V.A. Qarabağ bölgəsinin xalçaçılıq tarixi / V.A.Muradov. – Bakı: Elm, – 2015. – 564 s.

[26] Piriyev, V.Z. Azərbaycan XIII-XIV əsrlərdə / V.Z.Piriyev. – Bakı: Nurlan, – 2003. – 458 s.

- Qarabağ bölgəsinin musiqi folklorunda əmək nəğmələrinin yerini müəyyən etmək;

- Bölgənin iqtisadi-sosial şəraiti və təsərrüfat həyatı ilə üzvi şəkildə bağlı olan əmək nəğmələrinin funksional mahiyyətini araşdırmaq;

- Struktur tipologiyasının bəzi müddəalarından istifadə edərək əmək mahnılarının sistemləşdirilmiş şəkildə təsnifatını aparmaq;

- Qarabağ bölgəsi əmək nəğmələrinin musiqi - üslub xüsusiyyətlərini təhlil etmək;

- Əmək nəğmələrində musiqi və verbal mətnlərin qarşılıqlı əlaqələrini araşdıraraq, melopoetik xüsusiyyətlərini təhlil etmək;

- Qarabağ bölgəsinin əmək nəğmələrində sinkretizmin bəzi təzahür formalarını nəzərdən keçirmək;

- Struktur tipologiyasının metodoloji bazasından çıxış edərək janr daxilində müəyyən tipoloji modelləri aşkarlamaq;

- Qarabağ bölgəsinin əmək folkloru nümunələrinin semantik özəlliklərini təhlil etmək.

**Tədqiqat metodları.** Tədqiqatımızın başlıca metodologiyasını semiotik təhlilin prinsipləri təşkil edir. Etnomusiqişünaslıqda xalq musiqisi nümunələri daha çox müəyyən qrammatik qanunlar üzərində qurulmuş musiqi-üslub vəhdəti kimi araşdırılmışdır. Etnik musiqi nümunələrinin semantik təhlilinin başlıca məqsədi isə onların müxtəlif struktur səviyyələrində mənadaşıyıcı vahidlərinin aşkar edilməsindən ibarətdir. Semiotikanın inkişafında mühüm rol oynamış amerikalı alim Çarlz Morrisin nəzəriyyəsinə əsasən semiosizmin semantik, sintaktik və praqmatik aspektləri [27] bizim tərəfimizdən Qarabağın əmək nəgmələrində üzə çıxarılmış, folklor nümunələrində ikon, indeks, simvol işarə tiplərinin təzahür formaları araşdırılmışdır.

Tədqiqatda həmçinin müqayisəli təhlil metodundan istifadə edilmişdir. Eyni zamanda, musiqişünalığın ümumi nəzəri prinsipləri, görkəmli Azərbaycan, eləcə də xarici musiqişünasların tədqiqatlarında işlənmiş elmi nəzəri konsepsiyalar dissertasiyanın metodoloji bazasını

---

[27] Семиотика: (составление, вступительная статья и общая редакция Ю.С.Степанова ) / Ч.У.Моррис, Н.С.Трубецкой, В.Я.Пропп [и д.]. – Москва: Радуга, – 1983. – с. 42.

təşkil edir. Dissertasiyada M.Q.Xarlap[28], B.Xolopova[29], E.Alekseyev[30], habelə Azərbaycan musiqişünas və etnomusiqişünasları B.Hüseynli, E.Babayev, Ə.Eldarova[31], F.Xalıqadə, K.Dadaş-zadə, R.Zöhrabov[32], S.Seyidova[33], T.Kərimova, T.Məmmədov[34] və başqalarının nəzəri tədqiqatlarında yer almış müddəalardan istifadə olunmuşdur. Nəğmələrin məqam-intonasiya xüsusiyyətlərinin öyrənilməsində Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" fundamental elmi-tədqiqat əsərinə, janr təsnifatını apararkən M.İsmayılov, V.Propp[35], İ.Zemtsovski[36], F.Xalıqzadə, A.Mexnetsovun[37] elmi müddəalarına əsaslanmışıq.

Dissertasiyada təcrübədən nəzəriyyəyə keçid üslubundan istifadə edilir. İşdə qarşıya qoyulmuş vəzifələrdən biri əmək nəğmələrinin əsas inkişaf mərhələlərini tədqiq etmək olduğundan istinad etdiyimiz metodologiya xronoloji ardıcıllığa riayət edən tarixi, yeri gəldikdə isə müqayisəli, nəzəri üslub təhlildir. Bu baxımdan qeyd edə bilərik ki, dissertasiya mövzusunun xarakterinə

---

[28] Харлап, М.Г. Ритм и метр в музыке устной традиции / М.Г.Харлап. – Москва: Музыка, – 1986. – 103 с.

[29] Холопова, В.Н. Икон. Индекс. Символ. // – Москва: Музыкальная Академия, – 1997. №4, – с. 159-162.

[30] Алексеев, Э. Е. Нотная запись народной музыки / Э.Е.Алексеев. – Москва: Сов. Композитор, – 1990. – 166 с.

[31] Eldarova, Ə.M. Azərbaycan aşıq sənəti / Ə.M.Eldarova. – Bakı: Elm, – 1996. – 166 s.

[32] Zöhrabov, R.F. Şifahi ənənəli Azərbaycan professional musiqisi (Dərs vəsaiti) / R.F.Zöhrabov. – Bakı: Azərbaycan ensiklopediyası-Poliqrafiya birliyi, – 1996. – 72 s.

[33] Seyidova, S.A. Azərbaycan xalq professional musiqisi / S.A.Seyidova. – Bakı: Şirvannəşr, – 1998. – 56 s.

[34] Məmmədov, T.A. Azərbaycan xalq – professional musiqisi: aşıq sənəti (Dərs vəsaiti) / T.A.Məmmədov. – Bakı: Şur, – 2002. – 96 s.

[35] Пропп, В.Я. Поэтика фольклора / В.Я.Пропп. – Москва: Лабиринт, – 1998. – 352 с.

[36] Земцовский, И.И. Б.В.Асафьев и методологические основы интонационного анализа народной музыки // – Ленинград: Критика и музыкознание, – 1980. – с. 184-198.

[37] Мехнецов, А.М. Народная традиционная культура: статьи и материалы / А.М.Мехнецов. – Санкт-Петербург: Нестор- История, – 2014. – 440 с.

uyğun olaraq tarixi-müqayisəli və tiploji təsnifat metodlarının nəzəri prinsipləri əsasında yazılıb.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aparılan araşdırmanın mühüm istiqamətini təşkil edir və onlar bu şəkildə sıralanmışdır:

- Qarabağ bölgəsinin şifahi ənənəli musiqi janr sisteminin inkişafına tarixi-ictimai, mədəni-kulturoloji amillərin təsirinin araşdırılması;
- Qarabağ folklor mühiti, onun özünəməxsus musiqi dialektinin araşdırılması üçün zəmin yarada biləcək elmi mülahizələrin irəli sürülməsi;
- Qarabağ bölgəsinin folklorunda əmək nəğmələrinin yerinin müəyyən edilməsi;
- Bölgənin iqtisadi-sosial şəraiti və təsərrüfat həyatı ilə üzvi şəkildə bağlı olan əmək nəğmələrinin funksional mahiyyətini araşdırılması;
- Struktur tipologiyasının bəzi müddəalarından istifadə edərək öz rəngarəgliyilə seçilən əmək mahnılarının sistemləşdirilmiş şəkildə təsnifatının aparılması;
- Qarabağ bölgəsində maldarlıq və əkinçiliklə bağlı olan əmək nəğmələrinin musiqi-üslub xüsusiyyətlərinin təhlil edilməsi;
- Əmək nəğmələrində musiqi və verbal mətnlərinin qarşılıqlı əlaqələri araşdıraraq, melopoetik xüsusiyyətlərini təhlil edilməsi;
- Qarabağ bölgəsinin əmək nəğmələrində sinkretizmin bəzi təzahür formalarını nəzərdən keçirilməsi;
- Struktur tipologiyasının metodoloji bazasından çıxış edərək, janr daxilində müəyyən tipoloji modellərin aşkarlanması;
- Qarabağ bölgəsinin əmək folklor nümunələrinin semantik özəlliklərinin təhlil edilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Qarabağ bölgəsinin əmək nəğmələrinin tipologiyası və semantikasına dair mövzu Azərbaycan etnomusiqişünaslığında ilk dəfə olaraq dissertasiya səviyyəsində araşdırılır. Tədqiqat işində ilk dəfə olaraq:

- Qarabağ bölgəsinə çoxsaylı folklor ekspedisiyaları zamanı folklor daşıyıcılarından əmək mahnılarına aid zəngin musiqi materialı toplanılmışdır;

- Bölgənin əhalisinin məşğuliyyəti və təsərrüfat həyatının özəliklərini əks etdirən əkinçilik, maldarlıq və əmək fəaliyyətinin digər növləri ilə bağlı olan nəğmələr nota salınıb hərtərəfli təhlil olunmuşdur;

- daraq haqqında nəğmələr, parça toxunuşu ilə əlaqədar yaranan nəğmələr, habelə boyaq, təndirbaşı, Yelbaba, kirkirə, bağban haqqında nəğmələr və s. təhlilə cəlb olunmuşdur;

- Qarabağ bölgəsinin əmək folklor nümunələrinin semantik özəllikləri, emosional-ekspressiv və predmet-təsviri funksiyaları icra edir ikon və indeks tipli işarələr üzə çıxarılmışdır;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada təqdim olunan materialdan etnomusiqişünaslar tərəfindən bir mənbə kimi istifadə edilə bilər. Bu gün əmək nəğmələrinin bir çox janrlarının sıradan çıxdığı bir dövrdə dissertasiyada təqdim olunan musiqi-etnoqrafik materialın tarixi-mədəni əhəmiyyəti çox böyükdür. Əldə edilmiş nəticələr Azərbaycan Milli Konservatoriyasında, Bakı Musiqi Akademiyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, habelə musiqi fakültələri olan digər ali musiqi təhsil ocaqlarında "Azərbaycan xalq musiqi yaradıcılığı", "Azərbaycan xalq musiqisinin əsasları", "Etnomusiqişünaslıq", "Türk xalqlarının musiqisi" kimi fənlərin tədrisində bir mənbə kimi istifadə edilə bilər. Eyni zamanda dissertasiyanın nəzəri müddəaları və ilk dəfə müəllif tərəfindən nota alınmış autentik folklor nümunələri xalq musiqisi sahəsində aparılan elmi araşdırmalar üçün mənbə və məxəz əhəmiyyətini daşıya bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas nəticələri və müddəaları Azərbaycan, eləcə də Türkiyə, Qazaxıstan, Tatarıstan kimi ölkələrin beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan dövri elmi nəşrlərində dərc olunan məqalələrdə (19) öz əksini tapmışdır. Mövzu ilə bağlı məruzələr bir çox elmi-nəzəri konfranslarda dinlənilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, on beş paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, müəllif tərəfindən yazıya alınmış not nümunələri və informatorlar haqqında məlumat əsasında tərtib edilmiş əlavədən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, giriş 11 səhifə 19 473 işarədən, I fəsil 42 səhifə 73 344 işarədən, II fəsil 33 səhifə 49 747 işarədən, III fəsil 32 səhifə 46 522 işarədən, nəticə isə 12 səhifə 20 774 işarədən ibarətdir. Tədqiqat işinin ümumi həcmi isə istifadə edilmiş ədəbiyyat siyahısı və Əlavələr istisna olunmaqla 132 səhifə və 212 416 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, onun elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, o cümlədən elmi araşdırmada tətbiq olunan metodlar, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Qarabağ bölgəsinin musiqi folklorunda əmək nəğmələrinin yeri"** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir.

Birinci paraqraf "Azərbaycan əmək mahnılarının öyrənilməsi tarixindən" adlanır. Bu paraqrafda musiqi folklorumuzun ayrılmaz tərkib hissəsi olan əmək nəğmələrinin yazıya alınması və öyrənilməsi tarixindən bəhs edilir.

I fəslin ikinci paraqrafı "Qarabağ folklorunun toplanılması və tədqiqi məsələləri"nə həsr olunmuşdur. XX əsrin əvvəlindən başlayaraq Qarabağın bədii mədəniyyət nümunələrinin toplanılma prosesi intensiv şəkildə cərəyan etmişdir. Keçən əsrin ilk onilliklərində Qarabağ folklorunun araşdırılmasında 1923-cü ildən fəaliyyət göstərən "Azərbaycanı Tədqiq və Tətəbbo Cəmiyyəti"nin və 1932-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində yaradılmış Elmi-Tədqiqat Musiqi Kabinetinin (ETMK) mühüm rolu olmuşdur. Ümumilikdə XX əsrdə Qarabağa bir sıra musiqi-folklor ekspedisiyaları təşkil olunsa da, toplanılmış musiqi materialları əksər hallarda konkret

bölgələr göstərilmədən müxtəlif illərdə nəşr olunmuş “Azərbaycan xalq mahnıları” toplularında, habelə musiqişünaslıq işlərində yer almışdır.

Birinci fəslin üçüncü paraqrafı “Müasir dövrdə Qarabağın musiqi folkloru mühitinin janr sisteminə dair (folklor ekspedisiyalarımızın nəticələri əsasında)” adlanır.

Qarabağ bölgəsinin müxtəlif kəndlərinə, həmçinin digər rayonlarda məcburi köçkünlərin kütləvi məskunlaşdıqları qəsəbələrə 2013-2018-ci illərdə tərəfimizdən təşkil olunan folklor ekspedisiyaları zamanı topladığımız materiala əsasən belə nəticəyə gəlmək olar ki, Qarabağın musiqi folkloru mühiti aşağıdakı janrlardan ibarətdir: mərasim nəğmələri, məişət nəğmələri, tarixi nəğmələr, əmək nəğmələri.

Qarabağ bölgəsinin el havaları sistemində əmək nəğmələrinin məxsusi yeri vardır və onlar bir neçə qrupa bölünür: “ovçu nəğmələri”, “sayaçı nəğmələri”, “sağın nəğmələri”, “holavarlar”, “ipəkçi nəğmələri”, “balıqçı nəğmələri”, “hana nəğmələri” və s.

Folklor ekspedisiyalarından əldə etdiyimiz nümunələrə əsasən Qarabağ əmək nəğmələrinin tipoloji təsnifatını aşağıdakı ardıcıllıqla verməyi məqsədəuyğun hesab etmişik:

1. Maldarlıqla bağlı əmək nəğmələri
2. Əkinçiliklə bağlı əmək nəğmələri
3. Əmək fəaliyyətinin digər növləri ilə bağlı olan nəğmələr.

Dissertasiyanın ikinci fəsli **“Maldarlıq və əkinçiliklə bağlı əmək nəğmələri”** adlanır. Bu fəsil altı paraqrafdan ibarətdir. Folklor ekspedisiyaları zamanı apardığımız sorğular, topladığımız materiala əsasən qeyd edə bilərik ki, vaxtilə Qarabağda mal-qara təsərrüfatı ilə bağlı ilxıçı, sayaçı, çoban, sağın, nehrə nəğmələri, eyni zamanda əkinçilik təsərrüfatının vacib sahələri olan pambıqçılıq, üzümçülük, habelə bağbançılıqla bağlı nəğmələr geniş yayılmışdır.

Bu fəslin birinci paraqrafında “Sayaçı nəğmələri” təhlil edilmişdir. Əsrlərdən bəri Qarabağ əhalisinin iqtisadi həyatında maldarlıq təsərrüfatı böyük rol oynadığı üçün bu bölgədə əmək nəğmələrinin ən qədim növlərindən biri olan sayaçı nəğmələri də geniş intişar tapmışdır. Etnoqraf və folklorşünasların ilk əmək nəğmələri kimi təqdim edilən sayaçı nəğmələrində əsasən qoyunçuluq həyatı tərənnüm olunur. Tərəfimizdən toplanılan sayaçı nəğmələrində də xüsusilə

qoyunçuluq təsərrüfatı özünü ehtiva edir. Qeyd edək ki, təhlilə cəlb olunan hər bir sayaçı nəğməsinin müqayisəli təhlili verilmişdir.

İkinci fəslin ikinci paraqrafında "Sağın nəğmələri" təhlil olunmuşdur. Maldarlıq təsərrüfatı ilə bağlı yaranan nəğmələr sırasında sağın nəğmələrinin özünəməxsus yeri vardır. Ekspedisiya səfərlərimiz zamanı apardığımız müşahidələrə əsasən qeyd edə bilərik ki, bu nəğmələr hazırda əsasən qadın əməyini əks etdirir. Qadın əməyi ilə bağlı olan maldar nəğmələri içərisində sağın nəğmələri xüsusi əhəmiyyəti ilə seçilir. Sağın nəğmələri də sayaçı nəğmələri kimi maldarlıq təsərrüfatı ilə əlaqədar yaranmış qədim el havaları sırasına daxildir. Lakin bu janrların fərqi ondan ibarətdir ki, sayaçı nəğmələri qoyun, sağın nəğmələri isə həm qoyun, həm də inək təsərrüfatı ilə bağlıdır.

İkinci fəslin üçüncü paraqrafı "Nehrə nəğmələri"nə həsr edilmişdir. Qarabağın autentik foklor janrları arasında nehrə nəğmələri mühüm yer tutur. Məlum olduğu kimi, əmək nəğmələri əmək şəraitinin və əmək alətlərinin çıxardığı səsə uyğun şəkildə artikulyasiya edilir. Bu baxımdan qeyd edə bilərik ki, nehrə nəğmələrinin də özünəməxsus temp-ritmi nehrə əmək alətinin hərəkətləri ilə sinxron şəkildə inkişaf edir. Bu nəğmələrdə həm də Azərbaycan xalqının bəzi animistik təsəvvürləri özünü büruzə verir. Nehrə nəğmələri musiqi semantikası baxımından da xüsusi önəm daşıyır. Təhlil etdiyimiz bir çox nehrə nəğmələri emosional-ekspressiv və predmet-təsviri funksiyaları icra edir. Semiotik nöqteyi-nəzərdən həmin işarələri ikon və indeks kimi səciyyələndirmək olar. Belə ki, təhlil etdiyimiz bir çox nehrə nəğmələrinin semantik məzmununda oxşama, yalvarış və s. emosiyalar öz ifadəsini tapmışdır. Digər tərəfdən həmin nəğmələrin metr-ritmik quruluşunda nehrənin çalxalanma hərəkəti təsvir olunmuşdur. Etnofor Rüstəmova Səmayə tərəfindən ifa olunan nehrə nəğməsi əmək mahnılarının bu janrının səciyyəvi xüsusiyyətlərinin izlənilməsi baxımından maraq kəsb edir:

Nümunə 2.3.1



İkinci fəslin dördüncü paraqrafında “Çoban nəğmələri” öz əksini tapmışdır. Qarabağ bölgəsinə folklor ekspedisiyaları zamanı Bərdə rayonu Otuzikilər kənd sakini Telman Hüseynovdan bir neçə çoban nəğməsini yazıya almağa müvəffəq olduq. İlk əvvəl qeyd edək ki, etnoforun ifa etdiyi çoban nəğmələrindən üçünün (№14, 15, 16) poetik mətni ifaçının özünə məxsusdur. Müsahibə zamanı etnoforun qeyd etdiyi kimi, bu nəğmələrin mətnləri onun yazdığı şeirin müəyyən bəndlərini təşkil edir. Həmin mətnlərin məzmunu, vəzn və qafiyə xüsusiyyətləri bizi belə qənaətə gətirir ki, etnoforun müəllifi olduğu şeir M. Şəhriyarın “Heydərbabaya salam” poeması üslubunda yazılmışdır. Təhlilə cəlb olunan hər üç çoban nəğməsinin musiqi-sintaktik, məqam-intonasiya və metr-ritmik xüsusiyyətlərinin oxşarlığı onların eyni melotipin müxtəlif variantları olduğuna dəlalət edir.

İkinci fəslin beşinci paraqrafı “Əkinçiliklə bağlı pambıq nəğmələri” adlanır. Qarabağ bölgəsinin əkinçiliklə bağlı olan əmək nəğmələri sırasına bu gün də nadir hallarda ifa olunan pambıq nəğmələri daxildir. “Ağ qızıl” adı ilə dünyada tanınan pambığın vətəni Hindistan sayılır. Bu bitki ölkəmizə Qədim Şərq ölkələri, xüsusən də İran vasitəsilə gətirilmişdir. Azərbaycan kənd təsərrüfatı sektorunda strateji bitki sayılan pambıqçılıq toxuculuğun inkişafında da mühüm rol oynamışdır. Bol məhsuldarlığı ilə seçilən pambıqçılıq əsasən Kür-Araz sahili boyu ərazilərdə (Füzuli və s.) becərilir.

Qarabağ bölgəsinin iqtisadiyyatında mühüm mövqeyə malik olan “ağ qızıl” təbii ki, musiqi folklorunda da öz əksini tapmışdır. Belə ki, əkinçilər tərəfindən bitkini becərən zaman bir çox nəğmələr oxunmuşdur ki, bu nəğmələr də əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə ötürülərək dövrümüzə qədər gəlib çatmışdır. Maraqlıdır ki, bu nəğmələrdə pambığın əkilməsi prosesinin bəzi xüsusiyyətləri, əkinçilərin bol məhsul gözləmələri əks olunmuşdur.

Qeyd edək ki, Füzuli rayonuna ekspedisiya səfərimiz zamanı bir çox etnoforların ifasından pambıq nəğmələrini video lentə yazmağa müvəffəq olduq. Eyni bölgədə lakin ayrı-ayrı kəndlərdə yaşayan informantlar bir-birindən tamamilə fərqlənən musiqi folkloru nümunələri ifa etdilər.

İkinci fəslin son paraqrafında “Bağbanlıq və üzümçülüklə bağlı nəğmələri” təhlil etmişik. Qarabağ bölgəsinin əmək folklorunda bağban və üzümçü nəğmələrinin də özünəməxsus yeri vardır. Ekspedisiya zamanı topladığımız bu nəğmələrdə bağban əməyi vəsf olunur. Küflən (küfdibi, yelləncək) bağçılıq təsərrüfatı ilə bağlı olan əmək nəğmələri janrına daxil olan nümunədir. Bu gün nadir hallarda ifa olunan küflən nəğmələrindən yalnız birini yazıya almağa müvəffəq olduq (Not əlavəsi 25). Füzuli rayon Kərimbəyli kənd sakini 84 yaşlı Səmayə Rüstəmovanın ifa etdiyi küflən nəğməsi öz arxaik xüsusiyyətləri ilə seçilir. Birhissəli kompozisiyaya malik olan nəğmə cəmi 3 SNT-dan ibarətdir. Təhlil etdiyimiz nümunənin musiqi kompozisiyasının əsasında təkünsürlü melodik ibarələrin çoxsaylı təkrarı durur ki, bu da havanın qədim mənşəyinə dəlalət edir.

Bu gün nadir hallarda ifa olunan əmək nəğmələri sırasına üzümçülük təsərrüfatı ilə bağlı olan havalar da daxildir. Qarabağ bölgəsinə folklor ekspedisiyaları zamanı yalnız bir üzüm nəğməsinin yazıya alınmasına müvəffəq olduq. Üzüm nəğməsinin melopoetik xüsusiyyətləri autentik folklorun sintetik təbiətinin öyrənilməsi baxımından maraq kəsb edir.

Dissertasiyanın üçüncü fəsli **“Əmək fəaliyyətinin müxtəlif növləri ilə bağlı olan nəğmələr”** adlanır. Bu fəsil altı paraqrafdan ibarətdir. “Kirkirə nəğmələri” adlanan paraqrafda ilk dəfə olaraq topladığımız əmək nəğmələri içərisində kirkirə (və yaxud kirkirəfırlatmalar) nəğmələri özünəməxsusluğu ilə seçilir. Kirkirə – üyütmək məqsədilə əl ilə işlədilən alətə deyilir (bu alətə “əl dəyirmanı”, “əl daşı” da deyilir). Kirkirə vaxtilə Qarabağ bölgəsində geniş yayılmış arxaik əmək alətlərindən biri idi. Təhlilə cəlb olunan kirkirə nəğmələrinin metr-ritmik təşkili semantik zənginliyi ilə seçilir. Bu janra xas olan vəzn dəyişkənliyi və artikulyasiya xüsusiyyətləri çox ehtimal ki, əl dəyirmanının iş prosesinin bədii təxəyyüldə əksi və sinkretik vəhdətin bariz nümunəsidir.

“Yel baba nəğmələri” adlı ikinci paraqrafda bu gün nadir hallarda ifa olunan Yel Baba nəğmələri təhlilə cəlb olunmuşdur. Tədqiqatçı B. Hüseynovun araşdırmalarına əsasən belə qənaətə gəlmək olar ki, xalq nəğmələrində bu mifoloji obraz öz rəngarəng təcəssümünü tapmışdır. Bu obrazın çoxfunksiyalılığından bəhs edən

tədqiqatçı qeyd edir: *"Yel Baba təkcə əmək nəğmələrində 4 funksiya daşıyır. Xırman nəğmələrində küləyi çağırmağa, balıqçı nəğmələrində küləyi yatırmağa, misgər nəğmələrində ocağı alışdırmağa, dəyirmançı nəğmələrində pəri hərəkətə gətirməyə xidmət edir. Yel Babanı balıqçılar pis, xırmançılar yaxşı, misgər və dəmirçilər yardımçı obraz kimi səciyyələndirmişlər. Çoxfunksiyalılıq bəzən bu nəğmələrin təyinatını dəqiqləşdirməkdə çətinlik törədir"*[38].

Üçüncü paraqrafda "Sac və təndir (təndirbaşı) nəğmələri" təhlil edilmişdir. Bu gün nadir hallarda ifa olunan əmək nəğmələri sırasına sac və təndir (təndirbaşı) nəğmələri də daxildir. Təhlil olunan sac nəğmələrinin metr-ritmik təşkili rəngarəngliyi ilə seçilir. Təhlilə cəlb etdiyimiz təndir nəğmələrini əmək mahnılarının sinkretik təbiətinin parlaq nümunəsi hesab etmək olar. Əmək nəğməsinin bu nümunələrində musiqi və verbal ünsürləri əmək fəaliyyəti ilə bağlı olan müəyyən bədən hərəkətləri ilə üzvü şəkildə əlaqəlidir.

Dördüncü paraqrafda "Toxucu nəğmələri" verilmişdir. Azərbaycan autentik folklor sistemində öz rəngarəngliyi və müxtəlifliyi ilə seçilən toxucu nəğmələrinə cəhrə, boyaqçı, həsir, hana, daraq və s. nəğmə növləri aiddir. Bu nəğmələr öz bədii funksiya və icra olunma xüsusiyyətlərinə görə fərqlidir. Topladığımız toxucu nəğmələri arasında cəhrə nəğmələri üstünlük təşkil edir. Cəhrə ipin əyirilməsi üçün istifadə olunan alətdir və vaxtilə xalqın məişət həyatında əhəmiyyətli yer tutmuşdur. Cəhrə haqqında bir çox atalar sözləri də mövcuddur: "İydə varsa, cəhrədə də var", "Cəhrə əyirsən don yiyəsi olarsan" və s. Ekspedisiya zamanı toplanılan cəhrə nəğmələrinin hər biri əmək prosesinin ritminə uyğun formada oxunması ilə diqqətimizi cəlb etdi. Heç şübhəsiz ki, bu amil tədqiq etdiyimiz nümunələrin semantik sintaksisində mühüm əhəmiyyətə malikdir. F.Xalıqzadənin qeyd etdiyi kimi, "*ritm düzümü Azərbaycan xalq musiqisi üçün xarakter olan 6/8 ölçüsündə bir neçə dəfə təkrar olunsa da, cəhrənin fırladılması zamanı əlin qalxması və enməsi (bir növ antik nəzəriyyəçilərin arsis və tezis anlayışları) sabit və qeyri-sabit funksiyalar daşıyır və xüsusi bir "daxili ritmi" əmələ*

[38] Hüseynov, B.H. Azərbaycan folklorunda əmək nəğmələri: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2013. – s. 9.

*gətirir. Bu və ya başqa əmək nəğməsi iş əsnasında oxunmadıqda, özünün tipik üslub və janr xüsusiyyətlərini itirə bilər*”[39]

Əsasən trixord və tetraxord üzərində qurulmuş cəhrə nəğmələri Azərbaycan musiqi folklorunun erkən intonasiyaetmə prosesinin öyrənilməsi baxımından maraq doğurur. Burada modal ritmikanın ünsürləri də özünü büruzə verir. Təhlilə cəlb etdiyimiz nümunələr kuplet - variant formasındadır, lakin variantların hər birində formanın kristallaşma üsulları sırf fərdi xarakter daşıyır.

Təhlilə cəlb olunan bir sıra cəhrə nəğməsinin müqayisəli təhlili onların eyni melotipə məxsus olmasını sübut etdi. Aşkar olunan melotipin tipoloji xüsusiyyətləri aşağıdakı cədvəldə ümumiləşdirilmişdir:

Cədvəl 3.4.1

| **Musiqi dilinin ünsürü** | **Səciyyəsi** |
|---|---|
| Səssırası (12-ton sistem üzrə) | 3 – 1 - 0 |
| Melodik xəttin əsas konturları | C; B=3 (310) |
| Melodik xəttin kənar səsləri | 3 - 0 |
| Metr-ritmik sxem |   |

Toxucu nəğmələr silsiləsində həsir və hana nəğmələrinin özünəməxsus yeri vardır. Həsir yaxın keçmişə qədər Azərbaycanlıların məişətinin mühüm atributlarından biri idi. Bir faktı da qeyd edək ki, digər bölgələrdən fərqli olaraq Qarabağ bölgəsində həsiri yalnız qadınlar toxuyurlar. Həsir toxuyan nənələrimiz sinkretik sənətin əvəzolunmaz nümunələrini toxuculuq sənəti ilə əlaqədar yaratmışlar. Qarabağ bölgəsinin müxtəlif məntəqələrinə folklor ekspedisiyaları zamanı informantlar keçmişdə həsir toxuyarkən xüsusi nəğmələr oxuduqlarını söyləsələr də, ahıl yaşda olmaları ilə əlaqədar bu nümunələr onların hafizələrindən silinib getmişdir.

[39] Xalıqzadə, F.X. Üzeyir Hacıbəyli və folklor / F.X.Xalıqzadə. – Bakı: Şərq-Qərb, – 2014. – s.48.

Nəhayət uzun axtarışlardan sonra Füzuli rayonunun Araz Yağlıvənd kənd sakini Zabış Qocayeva apardığımız sorğu zamanı vaxtilə həsir toxuduğunu qeyd edərək bir neçə həsir nəğməsini ifa etmişdir. Musiqi dilinin orijinallığı və artikulyasiya xüsusiyyətlərinin özünəməxsusluğu ilə seçilən bu nəğmələri Qarabağ bölgəsinə məxsus autentik folklorun maraqlı nümunələri hesab etmək olar.

Şifahi ənənəli Azərbaycan musiqisində toxuculuq sənətilə bağlı yaranan janrlardan biri də daraq nəğmələridir. Daraq toxuculuq sənətində yunun daranması məqsədilə tətbiq edilən alətdir. Təəssüf ki, bu gün daraq nəğmələri çox nadir hallarda ifa olunan folklor nümunələri sırasına daxildir. Bu baxımdan informator Məleykə Cavadovanın ifa etdiyi nəğmə böyük elmi maraq kəsb edir (Not Əlavəsi №17).

Beşinci paraqrafda "Boyaq nəğmələri" təhlil edilmişdir. Qarabağ bölgəsinin əmək nəğmələri janrlar sistemində boyaq nəğmələrinin özünəməxsus yeri vardır. Qarabağ bölgəsində Füzuli, Ağdam, Şuşa və digər rayonlarda ipləri boyuyan xüsusi boyaqçılar sənətkarlar var idi. Hana toxunması ilə məşğul olan etnoforlar bizə söylədilər ki, onlar özləri də ipləri əksər hallarda boyaq otu dedikləri biyan vasitəsilə boyamış və bu zaman da zümzümə edirmişlər. Səciyyəvidir ki, boyaqçı nəğmələrində barama qurdu vasitəsilə hazırlanan iplərin boyanması texnikası, üsulları haqqında məlumat verilir. Qarabağ bölgəsinin boyaq nəğmələri musiqi dilinin arxaik xüsusiyyətləri ilə seçilir.

Üçüncü fəslin altıncı paraqrafında "Ovçu nəğmələri" verilmiş və təhlilə cəlb olunmuşdur. Azərbaycan əmək nəğmələri sırasında ovçu nəğmələri özünəməxsus yer tutur. Ovçu nəğmələri ovun məhsuldar olması məqsədilə oxunurdu. İnsanlar əsasən fərdi və kollektiv şəkildə ova getdikləri üçün onların ifa etdikləri nəğmələr də bir-birindən seçilir. Ümumiyyətlə əmək nəğmələrinin bu növü məzmun və forma rəngarəngliyi ilə seçilir. Qarabağın musiqi folklorunun araşdırılması məqsədilə ekspedisiya səfərlərində olduğumuz zaman həmsöhbət olduğumuz informantlar söylədilər ki, bu ərazilərdə ovçuluq geniş yayılmışdır, çünki əhalinin məşğuliyyətinin əsasını əkinçilik və maldarlıq təşkil edirdi.

Füzuli rayon Qazaxlar kənd sakini Diləfruz Nəzərovanın ifa etdiyi ovçu nəğməsinin məqam əsasını autentik folklorun qədim qatları üçün xas olan kiçik həcmli səssırası təşkil edir (Not Əlavəsi №35). Bu nəğmə ilkin məqam-intonasiya formullarından biri olan trixord üzərində qurulub ki, bu da nümunənin arxaikliyinə dəlalət edir.

**Nəticə** bölməsində tədqiqat zamanı aparılan araşdırmalara əsasən əldə olunan elmi-nəzəri müddəalar aşağıdakı qaydada ümumiləşdirilmişdir:

1. Hər bir etnik mədəniyyətin bədii-estetik dəyəri müəyyən mənada onun tərkib hissələri olan subetnik, lokal mədəni mühitlərin zənginliyi ilə müəyyənləşdirilir. Vahid milli mədəniyyət çərçivəsində ayrı-ayrı folklor ənənələrinin təşəkkülü və inkişafı bir çox tarixi-coğrafi, ictimai-siyasi olay və amillərdən asılı olan mürəkkəb bədii prosesdir. Uzunmüddətli tarixi inkişafın nəticəsində təşəkkül tapmış lokal etnomədəni ənənələrin öyrənilməsi xalqın etnogenezi, musiqi təfəkkür tərzi, mədəni əlaqələri və s. önəmli problemlərin çözülməsi üçün zəmin yarada bilər. Bu baxımdan Azərbaycanın şifahi ənənəvi mədəniyyətinin bütün dialekt rəngarəngliyi, regional zənginliyi ilə araşdırılması etnomusiqişünaslığımızda xüsusi önəm daşıyan məsələlər sırasına daxildir.

Təqdim olunmuş işdə Azərbaycan etnomusuqişünaslığında ilk dəfə olaraq Qarabağ etnomədəni mühitinin musiqi folkloru müstəqil tədqiqat obyekti kimi seçilmiş və hərtərəfli musiqişünaslıq təhlilinə məruz qalmışdır. Müasir etnomusiqişünaslığın əsas metodoloji parametrlərindən çıxış edərək əmək folklorunu müəyyən tarixi-sosioloji kontekstdə araşdırılmasına cəhd göstərmişik. Müntəzəm folklor ekspedisiyaları zamanı topladığımız zəngin musiqi-etnoqrafik faktlar əsasında əmək nəğmələrinin janr baxımdan təsnifatını təqdim etmişik ki, bu fakt da materialın sistemləşdirilməsi və tədqiqi baxımından son dərəcə böyük önəm daşıyan məsələdir.

2. XXI əsrin başlanğıcında ümumazərbaycan mədəniyyətinin bir hissəsi kimi formalaşan Qarabağ folklorunun araşdırılması bu gün etnomusiqişünaslıqda aktuallıq kəsb edən bir çox elmi problemlərin həllinə təkan verə bilər. Qarabağın musiqi folkloru Azərbaycanın şifahi ənənələr əsasında inkişaf etmiş musiqisinin ayrılmaz bir

hissəsidir. Əsrlərdən bəri burada muğam sənəti, aşıq yaradıcılığı, xalq mahnı və rəqs janrları geniş inkişaf tapmışdır. Bu regionun autentik folkloru zəngin ənənələri, geniş janr tərkibi, özünəməxsus ifaçılıq xüsusiyyətləri ilə səciyyələnir. Azərbaycanın hər bir bölgəsinin şifahi ənənəli musiqisi ümumi, universal əlamətləri ilə yanaşı, özünəməxsus cəhətlərə də malikdir. Qarabağ bölgəsinin musiqi folkloru da bu baxımdan istisna deyil. Sahə araşdırmaları əsasında həmin regionun musiqi folklorunun janr sistemi təyin edilmişdir. Bu regionda Azərbaycanın şifahi ənənəli musiqisinin əsas janrları intişar tapmışdır.

3. Qarabağ bölgəsinin autentik musiqi folklorunun ayrılmaz tərkib hissəsi olan əmək nəğmələri etnomusiqişünaslıqda aktuallıq kəsb edən məhəlli musiqi folklorunun tədqiqi baxımından böyük əhəmiyyətə malikdir. Qarabağ bölgəsinin musiqi folkloru nümunələrinin toplanılması və sistemləşdirilməsi məqsədilə bölgədə apardığımız çoxsaylı folklor ekspedisiyaları nəticəsində əmək fəaliyyətinin müxtəlif növləri ilə bağlı olan nəğmələr yazıya alınmışdır. Bu nəğmələr sırasında bu gün nadir hallarda ifa olunan cəhrə, daraq, kirkirə, təndirbaşı və s. nəğmələr də mövcuddur.

Qeyd olunur ki, aşkar edilən hər bir janr funksional baxımdan Qarabağ bölgəsinin təsərrüfat həyatının müəyyən sahəsi ilə bağlıdır. Tədqiq olunan bölgədə qədim tarixi dövrlərdə insanın əmək fəaliyyətinin, təsərrüfat həyatının inkişaf prosesini əmək mahnıları vasitəsilə izləmək mümkündür. Apardığımız araşdırma nəticəsində bir daha sübut olunur ki, janr və funksiya arasında müşahidə olunan əlaqələr tarixi xarakter daşıyır. Belə ki, bəzi hallarda müəyyən janr mövcud olduğu halda, onun ilkin funksiyası öz əhəmiyyətini itirərək yaddaşlardan silinir. Eyni zamanda belə nəticəyə gəlmək olar ki, bəzi janrların funksiyaları mürəkkəb quruluşa malikdir, yəni onlar estetik, tətbiqi, psixoloji, ictimai və s. amillərdən ibarətdir.

4. Qarabağ autentik folklorunun bir hissəsini təşkil edən əmək nəğmələrinin araşdırılması şifahi ənənəli musiqimizin və milli şeirin poetik quruluşunun arxaik qatlarının öyrənilməsi deməkdir. Müəyyən ictimai funksiyanın təsiri ilə janrların hər birində musiqi ifadə vasitələrinin xarakterik kompleksi formalaşmışdır.

Folklor ekspedisiyaları zamanı topladığımız material əsasında Qarabağ musiqi folklorunun mühüm hissəsini təşkil edən əmək nəğmələrinin tipoloji təsnifatı aparılıb. Məlum olub ki, Qarabağ bölgəsində əkinçilik, maldarlıq və əmək fəaliyyətinin digər növləri ilə bağlı müxtəlif əmək nəğmələri yaranmışdır. Tədqiqat zamanı aparılmış araşdırmalar nəicəsində müəyyən olunmuşdur ki, hər bir ədəbi janrın özünəməxsus tipoloji əlamətləri formalaşmışdır.

Qarabağ musiqi folklorunda özünəməxsus yer tutan əmək nəğmələri uzunmüddətli inkişaf yolu keçmişdir. Azərbaycan xalqının bədii-estetik dəyərlərini əks etdirən bu janr milli musiqi təfəkkürümüzün parlaq təzahürüdür. Əsrlərdən bəri əmək nəğmələri ilə şifahi ənənəli musiqi mədəniyyətimizin digər janrları arasında bu günə qədər kifayət qədər tədqiq olunmayan mürəkkəb intonasiya mübadiləsi getmişdir. Bu tarixi proses nəticəsində əmək nəğmələri inkişaf etmiş, digər janrlar isə yeni intonasiyalar ilə zənginləşmişdir.

5. Azərbaycanın Qarabağ bölgəsinin əmək folklor nümunələrinin semantik özəllikləri böyük maraq kəsb edir. Aparılan təhlilin nəticəsində belə qənaətə gəlmək olar ki, qədim musiqi folklorunun bu nümunələrində **ikon** işarə tipi ilə yanaşı əmək prosesinin müəyyən ünsürlərini təsvir edən **indeks** işarə növünün də önəmli rolu vardır. Əmək nəğmələrinin semantik sintaksisin təhlili bizi belə qənaətə gətirir ki, bəzi hallarda nümunələrin metr-ritmik özəllikləri müəyyən emosiyaların modelləşdirilməsi prosesində önəmli rol oynayır.

6. Qarabağ bölgəsinin əmək nəğmələri incəsənətin ilkin inkişaf mərhələlərinə xas olan sinkretizmin parlaq nümunəsidir. Gəldiyimiz nəticəyə görə, əmək nəğmələrinin musiqi dilinin bəzi ünsürləri əmək prosesinin və alətlərinin müəyyən özəllikləri ilə sıx şəkildə bağlıdır. Məsələn, nehrə nəğmələrinin özünəməxsus temp-ritmi nehrə əmək alətinin hərəkətləri ilə sinxron şəkildə inkişaf edir. Heç şübhəsiz ki, bəzi pambıq nəğmələrini də əmək mahnıların sinkretik təbiətinin parlaq nümunəsi hesab etmək olar. Bu nəğmələrdə musiqi və verbal ünsürləri əmək fəaliyyəti ilə bağlı olan müəyyən bədən hərəkətləri ilə üzvü şəkildə əlaqəlidir. Təhlil etdiyimiz sağım nəğmələrinin musiqi quruluşu da sinkretizm baxımından xüsusi maraq kəsb edir. Topladığımız və tədqiq etdiyimiz nümunələrə əsasən qeyd edə

bilərik ki, informantların oxuduqları nəğmələr sağım prosesinin ritminə uyğun şəkildə ifa olunur.

Əmək nəğmələrində həm də Azərbaycan xalqının bəzi animistik təsəvvürləri özünü büruzə verir. Məsələn, nehrə havalarının poetik və musiqi dilində etnosemiotik sistemin işarələrindən biri olan bolluq, artım simvolu öz təcəssümünü tapmışdır. Bu mülahizələrdən belə nəticə hasil olur ki, əmək nəğmələrində etnik mədəniyyətinə xas olan işarələr, simvollar öz təcəssümünü tapmışdır.

Araşdırdığımız əmək nəğmələrində sinkretizm musiqi və poetik mətnlərin üzvi şəkildə uzlaşmasında özünü büruzə verir. Bir qayda olaraq nəğmələrin musiqi sintaktik quruluşu onların poetik mətni ilə üzvi vəhdət təşkil edir. Bəzi hallarda hətta havanın verbal mətninin quruluş özəllikləri ilə məqam-intonasiya inkişafı arasında da paralellər aparmaq mümkündür.

7. Məlum olduğu kimi, folklor yaradıcılığının başlıca xüsusiyyətlərindən biri olan çoxvariantlılıq mətnin yaranmasında mühüm rol oynayır. Folklor nümunəsi ilk əvvəl hər hansısa fərd tərəfindən oxunur və dildən-dilə gəzərək çoxvariantlılıq xüsusiyyəti qazanır. Qarabağın autentik folklorunda əmək nəğmələri də çoxvariantlılıq özəlliklərinə görə diqqəti cəlb edir. Əmək nəğmələrinin toplanılması zamanı informantların sərbəst formada sözlərin, frazaların mətnə daxil etməsi, mətni öz dialektlərinə uyğun şəkildə dəyişməsini, yeni formalara salmasını müşahidə etdik.

Əmək nəğmələrinin elmi təhlili göstərir ki, folklorun ilkin yaranma dövründən başlayaraq onun sosial əsasının formalaşmasına əmək prosesinin kütləviliyi yardım göstərmişdir. Bu nəğmələrin poetik mətninin çoxvariantlı olması onların ifa tərzində və musiqi uslubunda da özünü aydın şəkildə büruzə verir. Digər tərəfdən təhlil etdiyimiz nümunələr arasında eyni poetik nümunənin müxtəlif melotiplər ilə ifa olunması hallarına da rast gəlmək mümkündür. Beləliklə, apardığımız təhlil Qarabağın əmək nəğmələrinin bədii sistemində çoxvariantlıq prinsipinin mühüm rol oynadığını aşkarladı.

8. Gəldiyimiz qənaətə görə, əmək mahnılarının janr sisteminə daxil olan hər bir tipoloji model özünəməxsus musiqi-üslub xüsusiyyətlərinə malikdir. Bəzi nümunələr inkişaflı melodikaya və nisbətən geniş ambitusa malik olsa da, təhlil etdiyimiz əmək

nəğmələrinin əksəriyyəti kiçik həcmli məqam quruluşuna malik olub, ilkin məqam-intonasiya formulları (bixord, trixord, tetraxord) üzərində qurulur. Qədim tarixə malik olan bu nəğmələr milli məqamların təkamülü, Azərbaycan musiqi folklorunun erkən intonasiyaetmə prosesinin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. Əsasən segah, şur və rast məqamlarının intonasiya formulları üzərində qurulan bu nəğmələr həmçinin diatonik məqamların təşəkkülü və ilk inkişaf mərhələləri haqqında təsəvvür yaratmağa imkan verir. Əmək nəğmələrinin metr-ritmik ünsürünün təşkilində modal ritmikanın təzahür formaları tədqiq edilmişdir. Araşdırılan əmək nəğmələrinin musiqi kompozisiyasında təkrarlılıq prinsipinin önəmli rolu aşkar edilmişdir.

Gəldiyimiz qənaətə görə, əmək nəğmələrinin müxtəlif janrları üçün ortaq olan müəyyən məqam-intonasiya modelləri mövcuddur. Bəzi hallarda, qeyd etdiyimiz kimi, bu məqam-intonasiya formullarını Azərbaycan məqam sisteminin formalaşmasından əvvəl mövcud olan ilkin, əzəli özəklər kimi təfsir etmək daha düzgün olar.

9. Əmək nəğmələrinin metr-ritmik quruluşunu ümumi şəkildə səciyyələndirərək ilk əvvəl onların modal ritmikasına əsaslanması faktını qeyd etməliyik. Yazıya aldığımız nümunələrin melomisraların müqayisəli şəkildə təhlili bizi belə qənaətə gətirir ki, onlar eyni metr-ritmik modusa əsaslanır. Onu da qeyd edək ki, müəyyən iş prosesinin özəllikləri (xüsusilə sağın, nehrə çalxamaq) dəqiq metr-ritmik ölçüyə malik olan nəğmələrin yaranmasına səbəb olmuşdur.

Qeyd edək ki, Qarabağ bölgəsinin əmək nəğmələrinin tipologiyasını həmçinin onların metr-ritmik özəlliklərinə görə də aparmaq mümkündür. Təhlil etdiyimiz nəğmələr arasında müntəzəm və qeyri-müntəzəm bəhrli nümunələrə rast gəlmək mümkündür. Topladığımız bir çox əmək nəğmələri (№2, 3, 4, 6, 7, 8, 14, 31, 32 və s.) müntəzəm bəhrə malikdir. Bəzi təhlilə cəlb olunmuş nümunələrin metr-ritmik quruluşu isə (№21 -24) sərbəst, qeyri-müntəzəm (tempo rubato) bəhrə əsaslanır. Qeyd etmək lazımdır ki, bu cür bəhr sisteminə əsaslanan əmək nəğmələri reçitativ-deklamasiyalı melodikaya malikdir.

10. Qarabağ bölgəsinin əmək nəğmələrinin sistemləşdirilməsi və tipologiyasını forma xüsusiyyətlərinə görə də aparmaq

mümkündür. İlk əvvəl qeyd edək ki, apardığımız təhlil nəticəsində belə qənaətə gəlmək olar ki, həm kişi, həm qadın əməyi ilə bağlı olan nəğmələrin quruluşunda təkrarlıq prinsipi mühüm formaqurucu rol oynayır. Onların əksəriyyətinin kompozisiyası kiçik məqam-intonasiya və ritm-intonasiya seqmentlərinin təkrarı, onların variantlı şəkildə səslənməsi üzərində qurulur.

11. Əmək nəğmələrin musiqi dilinin təhlilini ümumiləşdirərək, belə qənaətə gəlmək olar ki, ənənəvi musiqimizin bu sahəsində janrdaxili və janrlararası melotiplər mövcuddur. Məsələn, təhlilə cəlb etdiyimiz bəzi sağın nəğmələri (№40, 41, 44, 46) eyni melotipin müxtəlif təzahür formalarıdır. Həmin melotipə aid olan nümunələr arasında özündə daha arxaik əlamətləri ehtiva edən sağın nəğmələrindən birini (№46) arxetip kimi qəbul etmək olar. Bu nümunənin musiqi dilinin bəzi xüsusiyyətlərini (məqam-intonasiya və metr-ritmik təşkilində formulluq, təkrarlılıq prinsipi, kompozisiyanın əsasında təkünsürlü melodik ibarələrin durması və s.) prototipik səciyyəli əlamətlər hesab etmək olar.

12. Beləliklə, Qarabağ bölgəsinin təsərrüfat və məişət həyatı ilə bağlı olaraq yaranmış əmək nəğmələrinin təhlili bizi belə qənaətə gətirir ki, şifahi ənənəli musiqi folkloru janrının bu qədim nümunələrində Azərbaycan musiqisinin arxaik xüsusiyyətləri qorunub saxlanılmışdır. Bu baxımdan Qarabağ bölgəsinin əmək nəğmələri Azərbaycan musiqi təfəkkürünün təkamülünün araşdırılması baxımından mühüm mənbə kimi hesab edilə bilər. Qarabağ bölgəsinin həm əkinçilik və maldarlıqla, həm də əmək fəaliyyətinin digər növləri ilə bağlı olan nəğmələrinin təhlilini yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, həmin nümunələr Azərbaycan autentik folklorunun ən arxaik qatlarına aiddir. Əmək folklorunun ən qədim janrlarından olan əmək nəğmələri Azərbaycan musiqi mədəniyyətinin qaynaqlarının öyrənilməsi baxımından da böyük maraq kəsb edir. Dissertasiyada etnomusiqişünaslıqda ilk dəfə təhlil olunan daraq haqqında nəğmələr, parça toxunuşu ilə əlaqədar yaranan nəğmələr, boyaq, təndirbaşı, Yelbaba, kirkirə, bağban haqqında nəğmələr və s. Azərbaycan musiqisinin ən dərin qatlarından xəbər verir.

Bu irsin tədqiqi Azərbaycan musiqi mədəniyyətinin və bütün türk arealının erkən dövrlərinin tədqiqi baxımından da sön dərəcə

önəmlidir. Qarabağın müasir folklor mühiti əmək mahnılarının tarixi inkişaf yollarının mərhələlərinin izlənilməsi üçün də şərait yaradır. Azərbaycan folklorunun tərkib hissəsi olan əmək nəğmələrinin digər türk xalqlarının əmək nəğmələri ilə müqayisəli şəkildə təhlili türk bədii təfəkkürü haqqında zəngin məlumat verə bilər. Apardığımız təhlildən aydın olduğu kimi, əmək nəğmələri janrına aid olan bir qrup havalar sırasında onların arxetipi kimi qəbul oluna biləcək nümunələr qorunub saxlanılmışdır. Heç şübhə yoxdur ki, əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağın əmək nəğmələrinin gələcək araşdırmaları bədii mədəniyyətimizin və etnik tariximizin bir çox məqamlarına işıq salacaq.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**


4. Səfixanova, A.Ş. Musiqi folklorunun toplanılma məsələlərinə dair // – Bakı: Konservatoriya, – 2016. № 1 (31), – s. 45-47.
5. Səfixanova, A.Ş. Qarabağ bölgəsinin həsir nəğmələrinin semantik xüsusiyyətləri // – Bakı: Konservatoriya, – 2016. № 3 (33), – s. 39-45.
6. Səfixanova, A.Ş. Füzuli rayonunun musiqi folkloru ənənələri // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri XV Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: ADMİU, – 2 may, – 2016, – s. 58-61.
7. Səfixanova, A.Ş. Qarabağ əmək mahnılarının janr tipologiyasına dair // Ulu Öndər Heydər Əliyev İrsində multikultural və tolerant dəyərlər Beynəlxalq elmi konfransın materialları, – Bakı: Mürtəcim, – 3-5 may, – 2016, – s. 355-357.
8. Səfixanova, A.Ş. Nehrə nəğmələrinin struktur-semantik özəlliklərinə dair // Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları, – Bakı: ADNSU, – 24-25 may, – 2016, – s. 529-531.
9. Сафиханова, А.Ш. К проблеме жанровой типологии трудовых песен Карабаха // Материалы международной научно-практической конференции Фундаментальные и прикладные исследования музыки в XXI века, – Алматы: Казахстан, – 15 декабрь, – 2016, – s. 97-98.

10. Səfixanova, A.Ş. Qarabağ bölgəsinə məxsus ovçu nəğmələrinin struktur-semantik özəlliklərinə dair // – Bakı: Musiqi dünyası – 2017. № 2/71, – s. 53-58.
11. Сафиханова, А.Ш. Жанровая типология трудового музыкального фольклора Физулинского района Азербайджана // Материалы I международной конференция Традиционная культура тюркских народов в изменяющемся мире, – Казан: Татарстан, – 12-15 апреля, – 2017, – s. 399-401.
12. Səfixanova, A.Ş. Qarabağ bölgəsinin musiqi folklorunda sağın nəğmələri // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri XVI Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: ADMİU, – 2017, – s. 101-104.
13. Səfixanova, A.Ş. Qarabağ bölgəsinin cəhrə nəğmələrinin səciyyəvi xüsusiyyətləri // Doktorantların və gənc tədqiqatçıların XXI Respublika elmi konfransının materialları, – Bakı: BDU, – 24-25 oktyabr, – 2017, – s. 270-272.
14. Səfixanova, A.Ş. Azərbaycanın Qarabağ bölgəsinin əkinçi nəğmələrinin musiqi-üslub xüsusiyyətlərinə dair // Qloballaşan dünyada musiqi ənənələri I Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: Ecoprint, – 26-27 oktyabr, – 2017, – s. 191-196.
15. Səfixanova, A.Ş. Azərbaycanin Qarabağ bölgəsinin əmək mahnılarının semantikası // Uluslararası Kültür ve medeniyet kongresi, – Mardin: Türkiye, – 20-22 nisan, – 2018, – s. 9-14.
16. Əhmədova, A.Ş. Azərbaycanın Qarabağ bölgəsinin musiqi folklorunda çoban bayatıları // – Naxçıvan: Elmi Əsərlər, Humanitar elmlər seriyası, – 2018. №5 (94) II cild, – s. 192-196.
17. Əhmədova, A.Ş. Qarabağ musiqi folklorunda boyaqçılıq nəğmələrinin tipoloji janr xüsusiyyətləri // – Bakı: Elmi əsərlər – 2018. № 25, – s. 124-128.
18. Əhmədova, A.Ş. Azərbaycanın Qarabağ bölgəsinin musiqi folklorunda hana nəğmələrinin struktur-semantik təhlili // Uluslararası mesleki ve teknik bilimler kongresi, – Iğdır: Türkiye, – 11-12 nisan, – 2019, – s. 716-721.
19. Əhmədova, A.Ş. Qarabağ bölgəsinin musiqi folklorunda pambıq nəğmələrinin struktur-semantik təhlili // - Bakı:

Pedaqoji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2019. c.67, № 2, – s. 257-264.
20. Əhmədova, A.Ş. Xocalı rayonunun musiqi folkloru ənənələri // – Bakı: Filologiya və sənətşünaslıq, – 2019. № 2, – s. 296-301.
21. Əhmədova, A.Ş. Azərbaycanın qarabağ bölgəsinə məxsus pambiq nəğmələrinin struktur-semantik özəllikləri // – Ankara: Uluslararası Hakemli Derji Sosyal bilimler, Kültür Evreni dergisi, – 2020. № 37, – s. 90-99.
22. Ахмедова (Сафиханова), А.Ш. Черты синкретизма в трудовых песнях Карабахского региона Азербайджана // – Казан: Научный журнал Казанской государственной консерватории имени Н.Г.Жиганова, Музыка Искусство, наука, практика, – 2020. № 1 (29), – s. 74-80.

Dissertasiyanın müdafiəsi 25 may 2022-ci il tarixində saat 14⁰⁰ Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Azərbaycan Respublikası, Bakı şəhəri, Ş.Bədəlbəyli küç. 98.

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 22 aprel 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2022

Kağızın formatı: 60x84 1/16

Həcm: 43 600 işarə

Tiraj: 100